**UOT 78.03**
**https://doi.org/10.59849/2311-8482.2024.1.279**

**NURLANA BABAZADƏ***

# AZƏRBAYCAN MUSİQİSİNDƏ ŞƏHİDLƏRƏ HƏSR OLUNMUŞ ƏSƏRLƏR

*Məqalədə Azərbaycan bəstəkarlarının Vətənin müstəqilliyi uğrunda həlak olmuş Şəhidlərə həsr olunan* əsərlər *araşdırılır. Məqalədə Azərbaycanın ən yeni tarixində baş vermiş faciəvi hadisələr – Azərbaycan torpaqlarının işğalı, Qarabağ müharibəsi, 20 yanvar hadisələri, Xocalı soyqırımı ilə bağlı hadisələrlə bağlı musiqi yaradıcılığına daxil olmuş Şəhidlik mövzusunda əsərlər haqqında danışılır. Qarabağın azadlığı uğrunda Vətən müharibəsində qazanılan Qələbəyə həsr olunmuş əsərlərdə Şəhidlik mövzusunun aparıcı əhəmiyyətinə diqqət yetirilir. Bu mövzuda yazılmış əsərlərin obrazlı məzmunu, musiqi dilinin xüsusiyyətləri təhlil olunur.*

***Açar sözlər.*** Bəstəkar yaradıcılığı, mövzu dairəsi, simfoniya*, obrazlı məzmun, musiqi dili.*

## Giriş

Şəhidlik mövzusunda əsərlər bilavasitə 1990-cı və sonrakı illərdə yaranmış və bu günə kimi də yaranmaqda davam edir. Şəhidlik mövzusu bu gün də musiqimiz üçün ən aktual mövzulardan biri olaraq qalır. Azərbaycan musiqisində bu mövzuda yazılmış əsərlərdə bəstəkarların mövzuya münasibəti, onu dərk etməsi və yaradıcılıq təxəyyülü ilə dinləyiciyə çatdırmasında müxtəlif üslub xüsusiyyətləri üzə çıxır.

## Əsas təhlil

Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyev daim bəstəkar yaradıcılığını diqqət mərkəzində saxlayaraq, tövsiyə edirdi ki, "proqramlı musiqi əsərləri"nə xüsusilə müharibə vəziyyətində olan ölkədə böyük ehtiyac vardır. Azərbaycan bəstəkarlarının simfonik yaradıcılığı məhz müharibə və şəhidlik mövzusunu təcəssüm etdirən olduqca maraqlı əsərlərlə zənginləşmişdir.

Son otuz illik bir dövrdə yaranmış əsərləri mövzusuna görə iki yerə ayırmaq olar: Qarabağ faciəsinə həsr olunmuş əsərlər və Qarabağ zəfərinə həsr olunmuş əsərlər. Hər iki mövzu istiqamətində Azərbaycan bəstəkarlarının müxtəlif janrlı musiqi əsərlərini qeyd edə bilərik ki, bunlardan hər biri özünəməxsus keyfiyyətləri ilə fərqlənir. Hər bir əsər bəstəkarın vətəndaşlıq mövqeyini, baş verən hadisələrə münasibətini əks etdirir. Bu əsərləri birləşdirən ali bir hissiyyat – Vətən sevgisidir ki, hər bir bəstəkarın musiqi üslubuna uyğun təcəssüm olunur. Yazılma tarixinin fərqlənməsinə baxmayaraq, bu əsərlərdə həm faciədən doğan ağrıları, həm də qələbəyə inam hisslərini duyuruq.

Azərbaycanın ən yeni tarixində xalqımızın qarşılaşdığı hadisələr faciəli və eyni zamanda, şanlı olmaqla, insanların kədərini, qürurunu, igidliyini əks etdirir. 1990-cı illərdən başlayan bu tarix bizim dövlətimizin müstəqillik uğrunda mübarizə dövrüdür. Bu tarixin səhifələrində qanla yazılmış faciəli hadisələr, bir tərəfdən, milli-azadlıq mübarizəsinə qalxmış xalqımızın igid oğullarının şəhid olması, digər tərəfdən, Qarabağın işğalı, Xocalı soyqırımı, milyonlarla günahsız insanların həyatlarını itirməsi, yurd-yuvalarından didərgin düşməsi öz əksini tapmışdır. Nəhayət, 30 illik işğala son qoyularaq, Qarabağın azad edilməsi və qələbə sevincini yaşadıq. Bütün bunlar hamımızın qəlbində, şüurunda tarixi həqiqətlər kimi kök salmışdır. Eyni zamanda, mədəniyyət və incəsənətimizdə mövzu dairəsinə, obrazlara çevrilərək, sənətkarlarımızın yaratdırları əsərlərdə təcəssüm olunmuşdur.

Bu baxımdan müasir dövrdə musiqidə Vətənpərvərlik və Şəhidlik mövzusunun əbədi mövzularından birinə çevrildiyini qeyd etməliyik və bu da özündə olduqca çoxçalarlı hissləri əks etdirir - faciə, kədər, ağı, iztirab, igidlik, qürur, şərəf, məğrurluq. Vətənpərvərllik və Şəhidlik mövzusuna həsr olunmuş əsərləri nəzərdən keçirərkən, bunun şahidi oluruq.

Onu da qeyd etmək lazımdır ki, bəstəkarlarımızın yaradıcılığında bu mövzuda müxtəlif janrlı əsərlər meydana gəlmişdir: opera, oratoriya, kantata, simfoniya və simfonik əsərlər, xorlar, vokal və kamera-instrumental əsərlər. Proqramlı əsərləri mövzular üzrə ayıra bilərik.

20 yanvar hadisələri ilə bağlı əsərlər: Ramiz Mustafayevin 6 saylı "20 yanvar" simfoniyası,

Azər Rzayevin "Bakı-90" simfoniyası, Arif Mirzəyevin "Yanvar passionları"nı və s. qeyd edə bilərik.

Xocalı faciəsinə həsr olunmuş əsərlər: Nəriman Məmmədovun "Xocalı şəhidlərinin xatirəsinə" - 7 saylı simfoniyasını, Elnara Dadaşovanın "Xocalı laylası" xorunu göstərmək olar.

Şəhidlərin xatirəsinə həsr olunmuş əsərlər sırasında: Cövdət Hacıyevin 7 saylı "Şəhidlərin xatirəsinə" simfoniyası, Məmməd Quliyevin "Simfoniya-Rekviyem"i, Sevda İbrahimovanm "Vətən şəhidlərinə" kantatası və s. qeyd olunmalıdır.

Qarabağın işğalına həsr olunmuş əsərlər: Tofiq Bakıxanovun "Qarabag harayı" simfoniyası, Azər Dadaşovun "Şuşa" - 11 saylı simfoniyası, Oqtay Kazıminin "Murovdağ nəğmələri" oratoriyasını və s. mövzusuna görə böyük maraq doğurur.

Proqramlı adında mübarizə ruhlu, vətənin, qəhrəmanların adı ilə əsərlərdən Vasif Adigözəlovun "Qarabağ Şikəstəsi", "Qəm karvanı" oratoriyalarını, Ramiz Mustafayevin "Salatın", "Bu qan yerdə qalmaz", "Məhəmməd və Leyla" oratoriyalarını, Aqşin Əlizadənin "Ana torpaq" odasını qeyd etmək olar.

Bu istiqamətdə yaranmış əsərlər sırasında Qarabağ zəfərini tərənnüm edən əsərlər xüsusi yer tutur. Bu kimi əsərlər nisbətən son zamanlarda yaranmışdır. Bu mövzuda yazılmış əsərlərdə məzmun baxımından şaxələnmə özünü göstərir. Bunlardan bəzisi döyüş ruhunu əks etdirir: məsələn, Azər Dadaşovun "Zəfər çələngi" simfonik əsəri, Elnarə Dadaşovanın "Döyüş cəngisi" - tenor və simfonik orkestr üçün (söz: Ş.Musaoğlunun), Tural Məmmədlinin "Zəfər müjdəsi" – tenor, zərb alətləri, bas gitara və simfonik orkestr üçün (söz. R.Məmmədli), Lalə Cəfərovanın "Zəfər marşı" (söz: Əhməd Elbrus), Firəngiz Əlizadənin "Zəfər marşı" (söz: müəllifin) və s. bu qəbildəndir.

Bir qisim əsərlər Ali Baş Komandan İlham Əliyevə həsr olunmuşdur - Azad Zahidin "Qalib sərkərdəsi Azərbaycanın!" kompozisiyasını (söz. A.Qurbani), **Vüqar Məmmədzadə**nin "Dəmir yumruq" əsərini qeyd edə bilərik. Həmçinin, müharibə qəhrəmanları ilə bağlı Məmməd Cəfərovun "Poema"sı general Polad Həşimovun xatirəsinə ithaf edilib.

Vətəni tərənnüm edən əsərlərdən: Vasif Allahverdiyevin "Vətən torpağı" odasını (söz. Maya Heydər qızının), Sərdar Fərəcovun "Azad Şuşa" odasını (söz: müəllifin), Cəlal Abbasovun "Şanlı Azərbaycan" – xor və simfonik orkestr üçün (söz: Məhəmməd Hüseyn Şəhriyar) kompozisiyası qeyd edə bilərik.

Bütün bu əsərlərdə Şəhidlik mövzusu aparıcı xəttə çevrilərək, obrazlı məzmunun əsasını təşkil etmişdir. Hər bir bəstəkar öz yaradıcılıq prizmasından mövzuya yanaşaraq, özünəməxsus dramaturji həlli yollarını tapmışdır. Musiqişünas Xatirə Əhmədli bəstəkar yaradıcılığında Şəhidlik mövzusunun aspektlərini araşdıraraq yazır: "Bəstəkarlar əsasən obrazın nüanslaşdırılmasına, çoxcəhətli açıqlanmasına və inkişafına daha artıq diqqət yetirirlər. Bu əsərlərdə insanların faciəsini dərinliyinə kimi ifadə etmək üçün zəruri musiqi ifadə vasitələri özünü büruzə verir. Bu vasitələr fəal hərəkətli, təsirli olub, müasir dinləyicinin diqqətini cəlb edir, Azərbaycan xalqının yaşadığı və yaşamaqda davam etdiyi dramatik hadisələri dinləyiciyə çatdırır" [s.179]. Sənətkarların mövzuya münasibətində faciəni dərindən duyması obrazlı məzmunun açılmasında və musiqi dilinin aspektlərinin müəyyənləşməsində özünü qabarıq göstərir.

Şəhidlərə həsr olunmuş simfonik əsərlərdən Nəriman Məmmədovun "Xocalı şəhidlərinə" adlanan simfoniyasında mövzunun açılması maraqlı vasitələrlə həyata keçirilmişdir. N.Məmmədovun bu əsəri Azərbaycan tarixinin ən faciəli hadisələrindən biri ilə bağlıdır və bəstəkarın bu qətliama münasibətini əks etdirir. Əsərdəki faciəvi obrazların təcəssümü fəlsəfi yozumda verilir, bədbinlikdən nikbinliyə doğru dəyişir. Bəstəkar geniş spektrli hissiyyatı açıqlamaq üçün musiqinin müxtəlif bədii ifadə vasitələrindən istifadə etmişdir.

N.Məmmədovun Yeddinci simfoniyasında dörd hissəli kompozisiya daxilində simfonik silsilənin ənənəvi ardıcıllığı özünü göstərir: I hissə - Largo; II hissə - Allegretto; III hissə - Moderato; IV hissə - Allegro ansioso. Bəstəkar əsər boyu bu hissələri vahid dramaturji ardıcıllıqla şərh etsə də, burada simfonik silsilədən kənara çıxan cəhətlər də özünü göstərir. Simfoniyanın hissələri onun proqramlı məzmunundan irəli gələrək, şərh oluna bilər. Bəstəkar əsərin hissələrinin musiqi məzmununu baş verən hadisələrlə əlaqəli olaraq yozmaq olar.

Bu baxımdan I hissə musiqi məzmununa və xarakterinə görə silsilədə proloq əhəmiyyəti daşıyaraq, faciəli hadisələrdən xəbər verir. İkinci hissə simfoniyanın dramaturji süjet xəttində dramatik hadisələrin təcəssümü ilə bağlıdır. Üçüncü hissə bəstəkarın kədərini, faciəyə münasibətini əks etdirir.

Dördüncü hissədə bəstəkar düşmənə nifrətini, qəzəbini ifadə edərək, xalqın qələbə əzmini təcəssüm etdirmişdir. Göründüyü kimi simfoniyanın obrazlı məzmununda Xocalıda baş vermiş faciənin təsviri və bəstəkarın vətəndaşlıq mövqeyinin ifadəsi öz təzahürünü tapır. Simfoniyanın məzmununda faciəvi obrazların ön plana çəkilərək, qabarıq təcəssüm olunduğunu görürük. Şəhidlik mövzusu çərçivəsində obrazlar həm psixoloji dərinliyə, həm də ümumiləşdirməyə malik olub, musiqi dilinin özünəməxsus cəhətləri ilə ifadə olunur.

N.Məmmədovun Yeddinci simfoniyasının musiqisi böyük ifadə gücünə və konkret obrazlılığa malikdir. Əsərdə faciəvi hadisələrin qurbanlarının, xalqın qəhrəmanlığının və mübarizəsinin ifadəsi bəstəkar tərəfindən böyük humanist qüvvə ilə təcəssüm olunmuşdur.

Bəstəkar Arif Mirzəyevin "Yanvar passionları" vokal-simfonik əsəri 1990-cı il yanvarın 20-də Bakı şəhərində baş vermiş faciəli hadisələrin qurbanlarının xatirəsinə həsr olunmuşdur. Əsər xor, orqan, kamera-simfonik orkestr, qiraətçi və 2 xalq musiqisi ifaçısı – kamançaçı və xanəndə üçün nəzərdə tutulmuşdur. Əsərin adında öz əksini tapmış "passion" dini musiqi janrı kimi Avropada formalaşaraq, bəstəkar yaradıcılığına sirayət etmişdir. Passionların əsas cəhəti olan İsa peyğəmbərin iztirabları ilə bağlı mətnlərlə bağlı olsa da, A.Mirzəyev öz əsərində bu janra sərbəst yanaşmış, 20 yanvarda şəhidlik zirvəsinə ucalmış insanların ölümünü, bu faciəni yaşamış xalqın kədərini təsvir etmişdir. Bu baxımdan bəstəkar passionu dini mənada deyil, daha geniş mənada, xalq matəmini təcəssümü kimi şərh etmişdir.

Burada xor, orqan və kiçik tərkibli orkestrdən istifadə olunur. Əsərin ifaçı tərkibinə bəstəkar xanəndə və kamçaçı kimi milli musiqi ifaçılarının daxil edilməsi əsərin məzmunu ilə bağlıdır. "Yanvar Passionları" bir hissəli əsərdir, lakin bir hissə daxilində müxtəlif xarakterli epizodların bir-birini əvəz etməsi əsərin dramaturji inkişafını əks etdirir. Əsərdə polifonik epizodlar və muğam improvizasiyası növbələşərək, dramaturji süjet xəttinə özünəməxsus cəhətlər aşılayır.

Bəstəkar Azər Rzayevin "Bakı-1990" simfoniyası 20 yanvar şəhidlərinin ruhuna həsr olunmuşdur. Bu əsər bəstəkarın Azərbaycan tarixinin ən qanlı hadisəsinə münasibətini, etiraz səsini əks etdirirdi. Simfoniyada bəstəkar xalqın faciəsini, öz dərin kədərimi və həyəcanını özünəməxsus şəkildə təsvir etmişdir. Xalqın müstəqillik tarixində üzləşdiyi qanlı hadisələr bəstəkarın təsəvvüründə mübarizə yolunun, yenilmməz ruhunun, azadlıq arzusunun təcəssümünə çevrilmişdir.

Əsərin ideya məzmunundan irəli gələrək, bəstəkar maraqlı ifadə vasitələrindən istifadə etmişdir. Simfoniyada həm silahlı ordunun təcavüzü, həm də matəm səhnəsi təsvir olunmuşdur. Bəstəkar bu kimi epizodlarda ifadə vasitələrinin dəqiq seçimi ilə canlı səslənmə yarada bilmişdir. Xüsusilə matəm səhnəsində xanəndənin oxuması Azan verilməsini xatırladır. Bəstəkar burada əsərin faciəvi məzmununu daha dərindən təsvir etmək üçün orkestrin imkanlarından geniş surətdə istifadə etmişdir.

**Nəticə**

Beləliklə, Şəhidlik mövzusuna həsr olunmuş əsərlər müxtəlif fərdi cəhətlərlə təcəssüm olunmuşdur. Onun dərk olunması nostalji həyəcanlar çərçivəsində, Azərbaycan xalqının faciəsindən doğan kədər və hüzn şəraitində baş vermişdir. Bu əsərlərdə Azərbaycan professional musiqisinin nailiyyətləri və ənənələri öz əksini tapmışdır. Həmin əsərlər Azərbaycan musiqisinin obrazlı məzmununu zənginlşdirməklə yanaşı, musiqi tariximizin təkrarolunmaz səhifələrini təşkil edir.

## ƏDƏBİYYAT

1. Əhmədli, X.F. Azərbaycan bəstəkarlarının yaradıcılığında qəhrəmani-faciəvi obrazların təzahür aspektləri. // – Bakı: Musiqi dünyası. – 2006, № 1-2 (27). – s. 178-180.
2. Zöhrabov R.F. Heydər Əliyev və Azərbaycan Bəstəkarlar İttifaqı. // "Musiqi dünyası" jurnalı, № 3-4 (21), 2004, s. 3-12.

***Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının dissertantı***
***e-mail: kerimli-nura@mail.ru***

**Nurlana Babazade**

**WORKS DEDICATED TO MARTYRS IN AZERBAIJAN MUSIC**

The article examines symphonic works by Azerbaijani composers dedicated to martyrs who died for the independence of their homeland. The article describes the works on the topic of martyrdom that have entered musical creativity in connection with the tragic events of the modern history of Azerbaijan – the occupation of Azerbaijani lands, the Karabakh war, the events of January 20, the Khojaly genocide. In the works dedicated to the Victory in the Patriotic War for the Liberation of Karabakh, attention is drawn to the leading importance of the theme of martyrdom. The article analyzes the figurative content and features of the musical language of works written on this theme.

**Keywords.** *Composition, subject matter, symphony, figurative content, musical language.*

**Нурлана Бабазаде**

**ПРОИЗВЕДЕНИЯ, ПОСВЯЩЕННЫЕ ШЕХИДАМ В АЗЕРБАЙДЖАНЕ МУЗЫКА**

В статье рассматриваются симфонические произведения азербайджанских композиторов, посвященные шехидам, погибшим за независимость Родины. В статье рассказывается о произведениях на тему шехидства, вошедших в музыкальное творчество в связи с трагическими событиями новейшей истории Азербайджана – оккупацией азербайджанских земель, карабахской войной, событиями 20 января, Ходжалинским геноцидом. В произведениях, посвященных Победе в Отечественной войне за освобождение Карабаха, обращается внимание на ведущее значение темы мученичества. Анализируются образное содержание и особенности музыкального языка произведений, написанных на эту тему.

**Ключевые слова.** *Композиторское творчество, предметный круг, симфония, образное содержание, музыкальный язык.*

*Sənətşünaslıq elmləri doktoru İnara Məhərrəmova tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 04.02.2024**
**Son daxilolma tarixi:06.03.2024**